

Ayaz Arabaçı

# Köhnə bir pencəyini tapıb-geyib atamın, Gedəm, üzü dağlara..

## *Çəkir*

Hər kəsi göylərə sevgi qaldırır,
Hər kəsi torpağa məhəbbət çəkir.
Bu dünya məhbəsdi yaranışından,
Bilinmir cəzası nə müddət çəkir..

Günəş də isitmir içi buz ömrü,
Quzutək yalayır qədər duz ömrü,
Sürüb gedəncən bir ucuz ömrü,
Tale qabağına neçə şərt çəkir.

Qovub tutacaqlar dərədə-düzdə,
Vurub salacaqlar əllidə-yüzdə,
Baxma ki, özünü tox tutur üzdə,
Hamı fikir çəkir, hamı dərd çəkir.

İçini döndərmə nahaqdan neyə,
Neynəsən belədi, "əlif"-dən "be"-yə,
Ortada insanlıq qalmasın deyə,
Hamı divar hörür,hamı sədd çəkir.

Sən də yum gözünü, at başını di,
Hələlik yuxuynan qat başını di..
Əzrayıl allahın ət maşınıdı,
Gecə də gündüz də qoşub at çəkir.

Qaldı tülkülərə bəbir yerləri,
Tükəndi canımdan səbir yerləri,
Elə bahadı ki, qəbir yerləri,
Adam ölməyə də xəcalət çəkir..

***

dur bir az əl tərpət, yır-yığış elə,
qəlbimi toz basıb, yaman pintisən.
kimə toxutmusan bu gözəl toru,
hansı mühəndisin labirintisən.

bilmirəm hansını necə eləyim,
bir əldə məhəbbət, bir əldə təzad.
şüurlu şəkildə dəli oluram,
bu nə duyğulardı dəlisov-azad..

üzümə açdığın məhəbbət kisən,
könlümü riqqətə gətirə bilər.
məni şairlikdən min dəfə də çox,
bu mövzu diqqətə gətirə bilər.

balaca, əl boyda bir telefonda,
səsin min amperlik həyəcan verib.
o hansı rəssamdı cürətə gəlib,
sənə nəfəs verib, sənə can verib.

məni səndən gözəl duyan tapılmaz,
ruhuna ruhumdan nəğmə əmizdir.
səhərlər nə qədər işıqlı-nurlu,
axşamlar nə qədər heyrətamizdir.

bir gözəl aynada əksimi tapdım.
yaşımı əllidən geri sayırsan.
küllükdən tapılmış zümrüd qaş kimi,
ömrümü təzədən cilalayırsan.

## *VARDIN...*

Mən sənə
qatarlarda rast gəlmədim,
Rast gəlmədm getdiyim
uzaq şəhərlərdə.

Amma vardın içimdəki boşluğu dolduran
ümid dolu səhərlərdə.
Hardasa əlim çatmayan ən yuxarı
qatlarda vardın.
Başıma gələn bütün əhvalatlarda vardın.
Vardın
Clovlaya bilmədiyim ayaqlarımın sızıltısında.
Vardın qızıl şəfəqlərin ovcunda,
gümüş ilğımların mızıltısında.
Səndən ayrılıb getmək olmurdu,
getmək olmurdu şəklin düşən pəncərələrdən.
rəsmin düşən sulardan...

Ayılmaq olmurdu
bir külək kimi gəlib keçdiyin yuxulardan.
Hər şey köhnəlirdi sən təzə qalırdın,
xatirələrimin qürubunda köçəri durnatək
qanad çalırdın..

Hər bahar yağışlar çəmənlikləri
təmir eləyirdi,
hər çiçəkdən boylanırdın..
buludlarla döyüşdən yorulmuş
günəş kimi yanırdın.
Vardın,daşqınlarda,yanğınlarda,vəlvələlərdə,
Vardın xam xəyallarımın aynasında,
İçimdəki on ballıq zəlzələlərdə...

## *Bu iş olarmı,olmaz, bu iş olmazmı, olar...*

Göyün dərdli yerindən yağıb-tökür qara sis,
Uzaqda bir ambulans ulayır yenə pis-pis,
Dünəndən baş-başadı ürəyimdə iki hiss,
Bu iş olarmı,olmaz..bu iş olmazmı,olar.

Güclə xatırlayıram, o boz günü mən ancaq,
Əllərim köz kimidi,nəyə vursam yanacaq,
Bir az da belə sürsə ,nəfəsim dayanacaq..
Bu iş olarmı, olmaz..bu iş olmazmı,olar..

O alovun, o odun büstünü tamamlayım,
Cibimdəki məbləğin üstünü tamamlayım,
Qoy bir siqar yandırım,tüstünü tamamlayım,
Bu iş olarmı,olmaz..bu iş olmazmı, olar..

Çox ağır bir şəkildə inkirdə-minkirdəyəm,
Heç özüm də bilmirəm, nə etmək fikrindəyəm,
Pillələri aşağı..yuxarı..zikrindəyəm,
Bu iş olarmı, olmaz..bu iş olmazmı, olar..

Dönər bir də durnalar nə qaldı ki..bir azdan,
Qulağımda nəsə var ala-toran payızdan..
Bahar müjdəsi gəldi incik düşmüş o qızdan,
Bu iş olarmı, olmaz..bu olmazmı, olar..

O kimdi ki,dumana,yağışa,çənə düşmür.?..
Nağıl, alma..nə bilim..
düşmür ey,nənə,düşmür..
Həm də ki,qabaqcadan söyləmək
mənə düşmür..
Bu iş olarmı, olmaz..bu iş olmazmı, olar..

***

Tanrı da köks ötürür baxıb gözəlliyinə,
Bütün rənglər birləşib səndə ayaq saxlayır.
Səni xatırlayanda dərman gərəkmir mənə,
Ən dərin yaralarım bir anda qaysaqlayır.

Heç kimə qıymamışam bu yuxulu nəğməni,
Bir bahar havasına umudlanan puçuram.
Bu xaraba ömürdə sənsiz buraxma məni,
Sənin xəyallarının qarasınca uçuram..

Bir qızıl ilan kimi sürünürəm hədəfə,
Belinə dolanıram,nəfəsinə uyuram.
Səsini eşidəndə telefonda hər dəfə,
Qəlbimdə min ocağın istisini duyuram.

Bir saatlıq ömürdə illər boyu uzanıb,
Bir-birinin təkrarı mənasız qəzalarım..
Sənin çəmənliyində məncə çoxdan qazanıb,
İstirahət haqqını yorulmuş əzalarım..

Gəl uzadaq ömrünü qızılı şəfəqlərin,
Günəş qaşqabağını Yer üzünə tökməsin.
Nəfəs alıb sevinsin əllərim dərin-dərin,
Qəfil qərib bir ağrı ürəyimə çökməsin.

Küləklərdən sıyrılıb,yağışlarda yuyun gəl,
Sənin tərənnümündür qızıl donlu sətirlər.
Səndən ötrü yaranıb dünyadakı ən gözəl,
Çaylar,çöllər,çiçəklər,rənglər,süslər,ətirlər..

## *Gedəm üzü dağlara..*

Hesabını bilməyəm, vaxtımın- saatımın,
Burnundan buxar çıxa, yel qanadlı atımın,
Köhnə bir pencəyini tapıb-geyib atamın,
Gedəm, üzü dağlara..

Lal olmuş cığırların edəm nitqini bərpa,
Cilovunu boşaldam, at göy otları qırpa,
Küləklər yağışları qamçıtək mənə çırpa,
Gedəm, üzü dağlara..

Üzü zirvəyə qalxan yoxuşlar eniş gələ,
Düşəm dumana çənə, başıma min iş gələ,
Düzələ dilimdəki ümid dolu "keşkə"lər,
Gedəm, üzü dağlara..

Gedəm, gedəm elə hey, qulağım düşə səsə,
Yorğun yaz dumanıyla duram nəfəs-nəfəsə,
Beş-altı quzusundan dayım birini kəsə,
Gedəm üzü dalara..

Tənbəki tüstüsündən bığı saralmış babam,
Kefini soruşanda deyə şükür babatam..
Qayıda yaddaşıma, qayıda o dad, o tam,
Gedəm üzü dağlara..

Görəm körpə uşaqtək həvəsini anamın..
Uzaqlardan hiss edəm nəfəsini anamın,
Və bircə yol eşidəm..Və..səsini anamın,
Gedəm üzü dağlara..

Sağala sinəmdəki köhnə bir açıq yara,
Havalanmış atımla qərq olam palçıqlara,
İtlər görüb hürüşə, enəm alaçıqlara..
Gedəm, üzü dağlara..

Görüm, əziz tuturmu yurd oğlunun xətrini,
Üst başıma hopduram çölün-düzün ətrini,
Başqa cür zəngin olur nənələrin vitrini,
Gedəm üzü dağlara..

## *Olmasın...*

Bir az gileyliyəm mən bu yazıdan,
Gəlmir üzüşəfəq, gəlmir üzüdan,
Heç ola bilməz ki, min-min arzudan,
Birciyi dən tutub sünbül olmasın.

Gəl də, gəl bu uzaq yolları çirmə,
Ay donu"qirbişin", ay salı tirmə,
Sən gedib tikanın qoynuna girmə,
Qəlbim də həsrətdən bülbül olmasın..

Bir də könül qıran pisin-pisidi,
İçim başdan-başa eşqin hisidi,
Hərə bir çiçəyin fədaisidi,
Əgər sən yoxsansa min gül olmasın..

Hanı o qabaqkı "toy-düyün"lərin,
Susub harayların, batıb ünlərin,
Sənsiz təqvimlərə düşən günlərin,
Qədəmi bu başdan yüngül olmasın..

Götür qaz qəbrimi o bel,o kürək..
Bu yorğun gəmini hayana sürək..
Boşuna yanırsa o iki ürək..
Qoy ondan sonra da bu kül olmasın..

Qurbanam deməyə nə var ki,sözdə,
-Bu qədər dözübsən,bir az da döz, də..
Ayaq da yorulsun, qulaq da, göz də,
Yetər ki, yorulan könül olmasın...

## *QURTARSIN*

Qanadım yoxdu ki,bu dərdin üstən,
Bir dəfə quş kimi səkim, qurtarsın.
Sənin həsrətini harda azdırım,
Başımdan hayanda əkim, qurtarsın.

Etmə hər yetənə ətəklik məni,
Elə bal eşginə pətəklik məni,
Öldürüb qurtardı bu təklik məni,
Mən necə eləyim təkim qurtarsın.

Yalandı kim desə əjdaha mənə,
Bu sevgi oturdu çox baha mənə,
Deyirsən üz tutma sən daha, mənə,
Məni bu ağrıdan bə kim, qurtarsın.

Uğradım qədərim-qəzam nədisə,
Yükümü elə ver, əzam nədisə,
Kəs mənə biryolluq cəzam nədisə,
Mən də adam kimi çəkim qurtarsın..

Tutulmuş gözümə zövqü-səfa ver,
Son sözü yenə də son insafa ver,
Mənə özün yetiş, özün şəfa ver,
Qoyma bu yaranı həkim qurtarsın..

## *ATAM*

Bütün çilçıraqların fövqündə sən durursan..
Qəlbimizdə dövr edib, nəbzimizdə vurursan.
Hər gün ürəyimizdə hakimiyyət qurursan..
Atam.

Keçib gəldin vüqarla, min obadan, min eldən,
Barıt qoxusu gəlir əynindəki şineldən.
Milyon kərə üstündü bu cod qoxu ,"Şanel" dən,
Atam.

Böyük türk torpağında çevirdin yaza, qışı,
Halallıqla qazandın, məhəbbəti, alqışı,
Öpürəm alnındakı çatılan hər qırışı.
Atam.

Dünyanı bir həmlədə gətirdin ayağına,
Məlhəm buldun təbibtək könlümüzün dağına,
İki dünya bir olsa toz qonmaz bayrağına,
Atam..

Buludlara baş vurur, uca zirvədə kürsün,
Adın, qoy dövranını həmişə belə sürsün,
Neynirsən, ünvanına ,kim harda hürür, hürsün..
Atam..

Neçə ki, nizamdadı bu həyat, qalacaqsan,
Sənə olan bu eşqə, daim mat qalacaqsan,
Tarixdə son günəcən salamat qalacaqsan,
Atam..

## *Dözürsən*

Səni hər gün uşaq kimi aldadır,
Ovuc-ovuc dərman-dəva, dözürsən.
Buludların qara köçü yoldadır,
Alıb səni bir boz hava, dözürsən.

Heç bu qədər dözüm yoxdu dəmirdə,
O həkimdə-bu həkimdə, təmirdə,
Uçuq-sökük xaraba bir ömürdə,
Çəkmənsən də zövqi-səfa dözürsən.

Köksüm hərdən dəniz kimi çalxanır,
Eh mən də ki, salaxantı-salxanı..
Qapın-bacan soyuqları saxlamır,
Bilirsən ki, yoxdu səfa, dözürsən.

Kimin, nəyin xəyalını qurmuşam.?..
Ağ divarda şəkil kimi durmuşam,
Otuz yaşdan iliyini vurmuşam,
Çoxdan gedib, yoxdu qafa, dözürsən.

Hansı gündü mən də bilim son həmlə..
Mən də elə səfehlikdə sənəm də..
Nə tapıbsan,
50 ildi sinəmdə,
Mənim kimi bir əclafa dözürsən..

## *Vurdum*

Özümü bu həyatda,
Hər cürə işə vurdum.
Bağrımı tikə - tikə,
Eləyib, şişə vurdum.

İlləri verdim yelə,
Faydam olmadı elə,
Fərhad olmasam belə,
Min dağa tişə vurdum.

Hamıdan başıq,
deyil,
Görünən işıq deyil,
Heç kim ağ qaşıq deyil,
Hamını dişə vurdum.

## *MƏNƏM*

Sənə çətin gəlirunutmaq məni,
Gözünün ilk ovu, nübarı mənəm.
Yalandan ağlamabaşqa ad çəkib,
Hələ də könlünün qübarı mənəm..

Verərsən ən acıhəsrəti həzmə,
Çəkərəm təzədən ruhumu nəzmə,
Günəşli günlərifəsildə gəzmə,
Sənin taleyinin baharı mənəm..

O səs qulağında,mənim səsimdir,
O səsdən ürəyin əsim-əsimdir,
Saçında oynayan meh nəfəsimdir,
Qara tellərinin tumarı mənəm..

Dikəlməz gözündə saraylar çökən..
Könüllər qanadan,ürəklər sökən..
Yayın istisində zəhləni tökən,
Başına dolanano arı mənəm..

Hər gün ürəyində yara keçərsən,
Ağappaq yolları qara keçərsən,
Sən məndən adlayıb hara keçərsən-
O hasar,o divar,o barı mənəm.

Qopar bu nəğmədən qopar sən,məni...
Gözündə-könlündə apar,sən məni,
Harda arzulasantaparsan məni,
Bütün Azərbaycan diyarı mənəm.